# Parisdə ICESCO və Azərbaycan nümayəndələri arasında görüş olub

**İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) Parisdə Azərbaycan, Çin, Səudiyyə Ərəbistanı, Misir, İtaliya, Yaponiya, Qazaxıstan, Mərakeş, Oman, Qətər, İspaniya, Birləşmiş Ərəb Əmirlikləri və Özbəkistanın diplomatik nümayəndəliklərinin əməkdaşları ilə ikitərəfli görüşlər təşkil edib.**

AZƏRTAC təşkilatın mətbuat üçün açıqlamasına istinadla xəbər verir ki, Azərbaycan nümayəndə heyəti ilə görüşdə mədəni irs abidələrinin qorunması, bu sahədə müştərək layihələrin həyata keçirilməsi məsələləri müzakirə edilib.

Təşkilatın məlumatında qeyd olunub ki, bu görüşlər ICESCO-nun 53 üzv dövlətində Ümumdünya İrs obyektlərinin narahatedici vəziyyətinə yeni vizyonu təqdim etmək məqsədi daşıyırdı. Belə ki, 2024-cü ilin may ayında yoxolma təhlükəsi ilə üzləşən obyektlər siyahısına daxil edilmiş Ümumdünya İrs obyektləri ilə bağlı geniş araşdırma aparılıb və onun nəticələri təcili hərəkətə keçmək üçün əsas olub.



Bu təşəbbüsləri irəli sürmək üçün təşkilat üzv dövlətləri və qlobal tərəfdaşları fəal iştiraka çağırır. UNESCO-da iştirak edən həm üzv, həm də qeyri-üzv dövlətləri ICESCO-nun mədəniyyət və irs sahəsində prioritetləri və fəaliyyətləri barədə məlumatlandırmaq üçün məlumat görüşü də keçirilib. Bu səy Ümumdünya İrs Komitəsinin 47-ci sessiyası və qarşıdan gələn əsas tədbirlər kontekstində iki humanitar təşkilat arasında tərəfdaşlığı gücləndirməyə yönəlib.

Azərbaycan.- 2025.- 11 mart (№ 53).- S.15.